**“İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461 (Cild I); 2024, № 5 (I kitab), maddə 493; 2025, № 4 (I kitab), maddə 315, № 5, maddə 440, № 8, maddə 744) aşağıdakı dəyişikliklər edilsin:

1. 9-cu maddə üzrə:

1.1. 9.4-cü maddəyə “üstünlüyü” sözündən sonra “, bu Qanunun 9.5-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş hal istisna olmaqla” sözləri əlavə edilsin;

1.2. 9.5-ci maddə üzrə:

1.2.1. birinci cümləyə “arasında” sözündən sonra “notariat qaydasında təsdiq edilmiş” sözləri əlavə edilsin;

1.2.2. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“İpotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi bu Qanunun 14-cü maddəsinə uyğun olaraq əlavə dövlət qeydiyyatına alınmalıdır.”.

2. 14-cü maddə üzrə:

2.1. 14.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14.1.5-ci maddə əlavə edilsin:

“14.1.5. ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ ipoteka saxlayanlar arasında dəyişdirildikdə.”;

2.2. 14.2-ci maddədə “və” sözü vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə “özgəninkiləşdirilməsi” sözündən sonra “və ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi” sözləri əlavə edilsin.

3. 16.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“16.3. Bu Qanunun 14.1.2-ci və 14.1.5-ci maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, ipotekanın əlavə dövlət qeydiyyatına görə rüsumu ipoteka qoyan ödəyir, bu şərtlə ki, ipoteka müqaviləsində ayrı qayda nəzərdə tutulmasın.

Bu Qanunun 14.1.5-ci maddəsində nəzərdə tutulmuş halda dövlət rüsumu üstünlük hüququnun keçdiyi ipoteka saxlayan tərəfindən ödənilir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 oktyabr 2025-ci il
№ 282-VIIQD